# Satış xidmət sahəsi üzrə test tapşırıqları

1. Müəssisələrin lazımi xüsusi geyim, ayaqqabı və digər fərdi mühafizə vasitələri ilə təmin olunmasına nəzarəti kimə həvalə olunur?

A) Müəssisənin Həmkarlar İttifaqı komitəsinin sədri və təhlükəsizlik texnikası xidməti rəhbərinə

B) Əməyin mühafizəsi və təhlükəsizlik texnikası xidməti rəhbərlərinə

C) Baş mühəndisə və əməyin mühafizəsi xidmətinin rəhbərinə

D) Müəssisənin baş mühəndisinə və direktorun əməyin mühafizəsi üzrə müavininə

E) Müəssisənin Həmkarlar İttifaqı Komitəsinin sədrinə və baş mühəndisə

Testin çətinlik dərəcəsi: asan
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

2. Mal-materialların buraxılması hansı sənədə əsasən yerinə yetirilir?

A) Tələbnamə ilə

B) Faktura ilə

C) Vəkalətnamə ilə

D) Qaimə ilə

E) Qaimə - faktura ilə

Testin çətinlik dərəcəsi: asan
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. “Təhsil” NPM. Bakı, 2005, 474 səhifə

3. Məhsulun layihələndirilməsindən başlayaraq onun son istehlakçılar tərəfindən istifadəsinə qədər olan tam fəaliyyət dövrü necə adlanır?

A) Logistika

B) Marketinq

C) Biznes-sistem

D) Ehtiyyatların idarə edilməsi

E) İstehsal

Testin çətinlik dərəcəsi: asan
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.175

4. Neft məhsullarının marketinq təqiqatı zamanı ilkin informasiyanın toplanması üsullarına aşağadakılardan hansı aiddir?

A) Müşahidə və internetdən ibarətdir

B) Radio, televiziya və qəzetdən ibarətdir

C) İnternet və qəzetdən ibarətdir

D) Müşahidə, sorğu və sınaqdan ibarətdir

E) Sorğu və beyin fırtınasından ibarətdir

Testin çətinlik dərəcəsi: asan
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə.2012.s.50

5. Satışın həyata keçirilməsi məqsədi ilə aparılan marketinq tədqiqat planında istifadə edilən təkrar (törəmə, ikinci) məlumatlar dedikdə hansı məlumatlar nəzərdə tutulur?

A) Bir neçə istehlakçının bir məhsul haqqında verdiyi məlumat

B) Satışla bağlı respondentlərdən telefonla toplanmış məlumat

C) Satışdan sonra istehlakçılardan , məhsul haqqında toplanan məlumatlar

D) Eyni məshulun satışı ilə bağlı bir neçə korespondentin apardığı sorğu

E) Artıq mövcud olan və başqa məqsədlər üçün toplanmış məlumatlar

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə.2012.s.49

6. Cari alışlar, istehsalın təşkili və pul axınları üzrə qərar qəbulu zamanı istifadə olunan gözlənilən satış həcminin qiymətləndirilməsi , hansı anlayışla ifadə edilir?

A) Satış kütləsi

B) Satış potensialı

C) Satış kvotası

D) Satış büdcəsi

E) Satış əmsalı

Testin çətinlik dərəcəsi: asan
İstinad: Kotler F.Marketinq menecmenti. 2 ci nəşr /Rus dilindən tərcümə Bakı. 2008.s.135

7. Yer səthindən 2 metrdən yüksəklikdə iş aparılan zaman əsasən nədən istifadə olunmalıdır?

A) Rezin əlcəkdən

B) Xüsusi çəkmələrdən

C) Qulaqcıqdan

D) Eynəkdən

E) Kəmərdən

Testin çətinlik dərəcəsi: asan
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

8. Topdan Satış biznes sahəsi üçün nisbətən qısa zaman (adətən, bir il) müddəti üçün nəzərdə tutulan, məhdud məqsədlərə nail olmağın xüsusi siyasətinə malik olan və cari məsələləri həll etməyə yönəlmiş plan necə adlanır?

A) Strateji plan

B) Makroiqtisadi plan

C) Taktiki plan

D) Logistik plan

E) İnvestissiya planı

Testin çətinlik dərəcəsi: asan
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.61

9. Strateji planlar hansı müddət üçün tərtib edilir?

A) 3-5 il və daha uzun müddət

B) 1 – 1,5 il müddət

C) 1 il və daha qısa müddət

D) 3-5 ay  müddət

E) Ən azı 25-30 il

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.62

10. Toz əmələ gələn yerdə işçi heyət hansıfərdi mühafizə vasitələrinin hamısından istifadə etməlidir?

A) Mühafizə eynəyi, kombinezon və qulaqcıq

B) Mühafizə eynəyi, rezin əlcək və toza qarşı nəfəs qoruyucu vasitəsi

C) Mühafizə eynəyi, kombinezon və toza qarşı nəfəs qoruyucu vasitəsi

D) Dielektrik əlcək, kombinezon və toza qarşı nəfəs qoruyucu vasitəsi

E) Kəmər, kombinezon və toza qarşı nəfəs qoruyucu vasitəsi

Testin çətinlik dərəcəsi: asan
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

11. Aşağadakılardan hansı satışın planlaşdırılması məqsədi ilə  aparılan marketinq tədqiqatında  istifadə edilən ilkin məlumatlara aiddir?

A) Satışı planlaşdırılan məhsulla bağlı istehlakçılarla aparılan sorğunun nəticələri

B) Analoji məhsulların əvvəllər aparılmış satışı haqqında  məlumatlar

C) Gömrük komitəsinin  rəsmi statistik məlumatları

D) Statistika komitəsinin satışı planlaşdırılan məhsul haqqında statistik məlumatları

E)  Beynəlxalq  marketinq təqdiqat şirkətlərinin verdiyi məlumatlar

Testin çətinlik dərəcəsi: asan
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə.2012.s.49

12. Neft və neft məhsulları, mal və ya xidmətlərə əvəzlənməsi müqaviləsi verilənlərdən hansıdır?

A) Barter

B) Fyuçers

C) Birja

D) Veksel

E) Akkreditiv

Testin çətinlik dərəcəsi: orta
İstinad: Международные механизмы формирования цен на нефть и газ. Секретариат Энергетической Хартии, 2007 г. Dépôt Légal (Belgium): D/2007/7850/5.s.77

13. Neft çənləri, boru kəmərlərinin təmizlənməsi zamanı toplanan və yuma mayesi kimi istifadə olunan neft məhsullarının inventarizasiya məqsədləri üçün necə sənədləşdirilir?

A) İstehsalat zərurəti ilə silinmə kimi göstərilir

B) Digər növ və ya işlənmiş neft məhsulları kimi göstərilir

C) Təbii itki normaları üzrə silinməyə daxil edilir

D) Neft çənləri və boru kəmərlərində olan neft məhsuluna aid edilir

E) Bərpa olunacaq neft məhsuluna aid edilir

Testin çətinlik dərəcəsi: asan
İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.9.40.

14. Alınan, satılan və bölünən (paylanan) mal-materialların uçotunun vacibliyi haqqında deyilənlərdən hansı yanlişdır?

A) Müəsisəyə mədaxil olunan mal-materialların kəmiyyətini bilmək üçün

B) Müəssisədən məxaric olunan mal-materialların kəmiyyətini bilmək üçün

C) Müəsisəyə mədaxil olunan mal-materialların ümumi dəyərini, mədaxil üzrə mal-material dövriyyəsini bilmək üçün

D) Müəssisədən məxaric olunan mal-materialların ümumi dəyərini, məxaric üzrə mal-material dövriyyəsini bilmək üçün

E) Müəssisənin aylıq, illik vəsait girişini müəyyən etmək üçün

Testin çətinlik dərəcəsi: asan
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. "Təhsil" NPM. Bakı, 2005, 474 səhifə

15. Alıcı davranışlarına təsir edən əsas amillər hansı cavabda düzgün göstərilmişdir?

A) İnzibati amillər, sosial amillər, fərdi amillər, məcburi amillər

B) Məcburi amillər, ictimai amillər, fərdi amillər, psixoloji amillər

C) Mədəni amillər, sosial amillər, fərdi amillər, psixoloji amillər

D) İnzibati amillər və sosial amillər

E) Yalnız psixoloji amillər

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.133

16. Neftbazaların labaratoriyalarında neft məhsullarınını keyfiyyət analizinin qeydiyyatı jurnalın hansı müddət ərzində saxlamaq lazımdır?

A) 8 il müddətində

B) 1 il müddətində

C) 25 il müddətində

D) 10 il müddətində

E) 3 il müddətində

Testin çətinlik dərəcəsi: orta
İstinad: "Правил технической эксплуатации нефтебаз" Москва. 28 декабря 1984 года.m.7.10.6.

17. Tədqiqat obyekti ilə əlaqə yaratmaqla satış haqqında informasiyanın toplanması , ilkin məlumatların toplanmasının hansı üsuluna aiddir?

A) Reklam

B) Müşahidə

C) Sınaq

D) Sorğu

E) Eksperement

Testin çətinlik dərəcəsi: asan
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.51

18. Müəssisənin mal-material ehtiyatları hansı bölmədə saxlanılır?

A) Mühafizə bölməsində

B) Anbarda

C) Mühasibat bölməsində

D) Təchizat bölməsində

E) Satınalma bölməsində

Testin çətinlik dərəcəsi: asan
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. "Təhsil" NPM. Bakı, 2005, 474 səhifə

19. Satın alınan məhsullar üçün təxmini dəyərin müəyyən edilməsində vacib olan sorğu sənədlərini kim hazırlayıb göndərir?

A) Sifarişçi

B) Təchizat şöbəsinin əməkdaşı

C) Malgöndərən (podratçı)

D) Satınalmalar komitəsinin katibi

E) Satınalmalar qrupunun rəhbəri

Testin çətinlik dərəcəsi: orta
İstinad: "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu

20. Neft və neft məhsullarının inventar siyahısı necə nüsxədə tərtib olunur və kimlərdə qalır?

A) 2 nüsxədə , bir nüsxəsi mühasibat şöbəsində və ikinci nüsxəsi maddi məsuliyyət daşıyan şəxslərdə qalır

B) 2 nüsxədə , bir nüsxəsi mühasibat şöbəsinə təqdim olunur və ikinci nüsxə fond qrupunda qalır

C) Vahid nüsxədə olmaqla, mühasibat şöbəsinə təqdim olunur

D) 3 nüsxədə olmaqla , Bir nüsxə  çənlər parkının rəisində , ikinci nüsxəsi maddi məsuliyyət daşıyan şəxslərdə və üçüncü nüsxə fond qrupunda qalır

E) 2 nüsxə, Bir nüsxə  çənlər parkının rəisində , ikinci nüsxəsi fond qrupunda qalır

Testin çətinlik dərəcəsi: asan
İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.9.25.

21. Alınan avadanlıq və mexanizmlər istismara verilərkən nasazlıq aşkar olunduqda nə edilməlidir?

A) Mal satan təşkilata şifahi xəbər verilməlidir

B) Qüsurlar barəsində mal satan təşkilata məktubla yazılı müraciət edilməlidir

C) Qüsurlar barədə akt tərtib olunmalı, nasazlıq aradan qaldırılmalı və avadanlıq  istismara verilməlidir

D) Aşkar olunmuş nasazlıq və qüsurlar barədə akt tərtib olunmalı, avadanlıq geri qaytarılmalı və mal satan təşkilata xəbər verilməlidir

E) Qüsurlar barəsində rəhbərliyə xəbər verilməlidir

Testin çətinlik dərəcəsi: asan
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. “Təhsil” NPM.  Bakı, 2005, 474 səhifə

22. Topdan Satış ( biznes sahəsi) üçün uzunmüddətli məqsədlərə nail olmaq üçün hazırlanan plan necə adlanır?

A) Bazarlama

B) Taktika

C) Logistika

D) Təchizat planlaması

E) Startegiya

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.61

23. Çənlərin illik əsaslı təmir qrafikinə salınmış təmir işlərin xüsusiyyətin, həcmin və dəyərin əvvəlcədən müəyyən etmək üçün hansı sənəd tərtib edilir?

A) Defekt cədvəli və nəqliyyat qaiməsi

B) Əmtəə - nəqliyyat qaiməsi

C) Layihə smetası və invois

D) Defekt cədvəli və layihə smetası

E) Təmir- quraşdırma aktı

Testin çətinlik dərəcəsi: çətin
İstinad: Правила технической эксплуатации резервуаров и инструкции по их ремонту. Москва «Недра» 1988. s.2.1.22

24. Alıcıların hansı tələbatı, onun qidalanma problemini həll edir?

A) Empirik tələbat

B) Sosial tələbat

C) Simvolik tələbat

D) Koqnitiv tələbat

E) Fızioloji tələbat

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.138

25. Bazara yeni çıxarılmış mühərrik yağının bir və ya bir neçə potensial alıcıya şifahi təbliğat aparmaqla satışının həyata keçirilməsi hansı marketinq kommunikasiya üsuluna aiddir?

A) İctimai fəaliyyət

B) Reklam

C) Şəbəkə satışı

D) Şəxsi satış

E) Fərdi maarifləndirmə

Testin çətinlik dərəcəsi: çətin
İstinad: S.Asurov. Marketinqin kommunikasiya sistemiş Bakı, 2008 s.9.

26. Məhsulun alınmasına qərar verməkdə alıcının (insanın) oynaya bildiyi rollar hansılardır? 1. təşəbbüskar, 2. təsir göstərən, 3. qərar qəbul edən, 4. alıcı, 5. istifadəçi, 6. istehsalçı, 7. daşıyıcı

A) 1,2,3,4,5

B) 3,4,5,6,7

C) 1,3,5,6,7

D) 1,3,4,5

E) 2,6,7

Testin çətinlik dərəcəsi: asan
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.151.

27. Əmək şəraitinin vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar aşağıda göstərilən bəndlərdən biri maddi həvəsləndirmədir?

A) Şəklinin şərəf lövhəsinə vurulması

B) İş yerinin dəyişdirilməsi

C) Təşəkkür elan edilməsi

D) Sanatoriyalara pulsuz putovkaların verilməsi

E) Döş nişanlarının verilməsi

Testin çətinlik dərəcəsi: asan
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

28. Marketinqdə istehlakçıların Dörd “C” – sinə nələr aiddir?

A) Zaman, Məhsul , Kəmiyhyət, Kommunikassiya

B) İstehlakçının qərarai, Alıcının alış verişə ayırdığı vaxt, Kommunikassiya, Kəmiyyət

C) İstehlakçının qərarai, Alıcının xərcləri, Rahatlıq, Kommunikassiya

D) Alıcının alış verişə ayırdığı vaxt, Kommunikassiya, Keyfiyyət, Yer

E) Əmtəə, Qiymət, Yer, İrəlilədilmə

Testin çətinlik dərəcəsi: orta
İstinad: Kotler F.Marketinq menecmenti. 2 ci nəşr /Rus dilindən tərcümə Bakı. 2008.s.29.

29. Neft məhsullarının çatdırılması üçün sutkalıq Əmr neçə nüsxədə hazırlanır?

A) 4 nüsxədə

B) 1 nüsxədə

C) 2 nüsxədə

D) 8 nüsxədə

E) 12 nüsxədə

Testin çətinlik dərəcəsi: orta
İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.5.22.

30. Mal-materialı satıcıdan təhvil alarkən malların miqdarı qaimə-fakturada göstərilən faktiki saydan az olduğu halda təchizatçı nə etməlidir?

A) Qaimə-fakturanı imzalamalı və gələn malları təhvil almalıdır

B) Qaimə-fakturanı imzalamalı və satıcıya gəlməyən malların növbəti dəfə çatdırılmasını bildirməlidir

C) Qaimə-fakturanı imzalamamalı və gələn malları qəbul etməlidir

D) Qaimə-fakturanı imzalamamalı və gələn malları qəbul etməməlidir

E) Mal-material qəbulu zamanı qaimə-fakturanın və digər sənədlərin tərtibi önəmli deyil

Testin çətinlik dərəcəsi: orta
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. "Təhsil" NPM. Bakı, 2005, 474 səhifə

31. Avadanlıq və mal-materiallar anbarlarda hansı qaydada və hansı şəraitdə saxlanmalıdır?

A) Ölçü vahidinə uyğun saxlanılır və qeydiyyata alınır

B) İstifadə sahəsi üzrə yığılmalıdır və hesablanmalıdır

C) İdarələr üzrə yığılır və təhvil verilməsi üçün qeydiyyata alınır

D) Həyətdə saxlanılır və nəzarət blankında qeydiyyata alınır

E) Birkalanmalıdır və rəflərdə çeşidlər üzrə yığılmalıdır

Testin çətinlik dərəcəsi: çətin
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. "Təhsil" NPM. Bakı, 2005, 474 səhifə

32. Marketinqin strateji planının əsasını hansı bloklar təşkil edir: 1.müəssisənin missiyası 2.məqsədi 3. biznes qovluğunun qurulması 4. inkişaf imkanları 5. marketinq strategiyası 6. Kadr potensialı

A) 1,2,3,4 və 5

B) 1,2,3,4,5 və 6

C) 1,2 və 6

D) 2,3,4,5 və 6

E) 4 və 6

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.63

33. Əhalinin hər nəfərinə düşən maddi nemətlərin və xidmətlərin kəmiyyət və keyfiyyətini əks etdirən göstərici hansıdır?

A) Yaşayış vasitələri

B) Həyat tərzi

C) Həyat səviyyəsi

D) Əmək haqqı

E) Şəxsi yığım

Testin çətinlik dərəcəsi: asan
İstinad: Q.Y.Əbdülsəlimzadə. İqtisadi Nəzəriyyə-Economics. Nəşriyyat Poliqrafiya Mərkəzi. Bakı, 2012

34. Qatı və donan neft məhsulları hansı vaqonlarda daşınmalıdır?

A) Daşınması qadağandır

B) Alüminium qazanlı çən vaqonlarda

C) Universal  konteynerlərdə

D) Yalnız 200 litirlik çənlərdə(boşka)

E) Buxar köynəkli vaqon çənlərdə

Testin çətinlik dərəcəsi: orta
İstinad: "Правил технической эксплуатации нефтебаз" Москва. 28 декабря 1984 года.m.5.2.30.

35. Hündürlükdə işləyən işçiləri xəsarət almaqdan qorumaq üçün nəzərdə tutulan qoruyucu kəmərin üzərində hansı yazılar olur?

A) Son istifadə tarixi, buraxılma tarixi, materialın tərkibi

B) Son istifadə tarixi, buraxılma tarixi, əmtəə nişanı

C) Tipi, son istifadə tarixi, əmtəə nişanı

D) Tipi, buraxılma tarixi, materialın tərkibi

E) Tipi, buraxılma tarixi, əmtəə nişanı

Testin çətinlik dərəcəsi: orta
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

36. Neft bazalardan neft məhsulların inventarizasiyası hansı müdətlərdə aparılmalıdır?

A) Ayda bir dəfədən gec olmayaraq

B) Üç ayda bir dəfədən gec olmayaraq

C) Altı ayda bir dəfədən gec olmayaraq

D) On iki ayda bir dəfədən gec olmayaraq

E) On gündə bir dəfədən gec olmayaraq

Testin çətinlik dərəcəsi: çətin
İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.9.1.

37. Satışın proqnozlaşdırılmasında istifadə edilən ekspertlər üsulunun nöqsanı nədir?

A) Bu üsulun tətbiqinin çox mürəkkəb olması

B) Ekspertlərin mülahizələrinin subyektiv olması

C) Statistik informasiyanın mövcud olmasından asılı olması

D) Qeyri-müəyyənlik şəraitində tətbiq edilə bilməməsi

E) Böyük maliyyə xərcləri tələb etməsi

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.129

38. Neft bazada neft məhsulların inventarizasiyası üçün yaradılan və 7 nəfər üzvü (sədrlə birlikdə) olan işçi komissiyanın ən azı neçə üzvünün iştirakı ilə inventarizasiya aparıla bilər?

A) 3 üzv

B) 6 üzv

C) 5 üzv

D) 4 üzv

E) 7 üzv

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.9.15.

39. Neft məhsullarınını bazarının araşdırılması və ya marketinq tədqiqatlarının aparılmasının "Əhatəli müsahibə" üsulunda peşəkar aparıcı neçə respondentlə müsahibə aparır?

A) Ən azı 3 respondentlə birgə müsahibə aparır

B) Yalnız 1 respondentlə təbətək müsahibə aparır

C) Azı 6 respondentlə birgə müsahibə aparır

D) Sayı 8-10 arası respondentlə birgə müsahibə aparır

E) 15 nəfərlik qruplarla müsahibə aparır

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.52

40. Kompaniyanın özünün hər bir müştərisinə, xüsusi olaraq onlar üçün nəzərdə tutulmuş məhsul , xidmət, qiymət və çatdırlma kanallarının təmin etməsi və ya etmə iqtidarında olması hansı anlayışla ifadə edilir?

A) Autsorsinq

B) Kastomizasiya

C) Lokalizasiya

D) Remarketinq

E) Konvergensiya

Testin çətinlik dərəcəsi: asan
İstinad: Kotler F.Marketinq menecmenti. 2 ci nəşr /Rus dilindən tərcümə Bakı. 2008.s.46

41. Anbarda mal-material ehtiyatının azalması halını qeyd edin.

A) Anbara giriş zamanı

B) Anbar sayımı aparıldıqda

C) Satış müqaviləsi bağlanmamışdan əvvəl

D) Məxaric zamanı

E) Satış üçün bağlanan müqavilənin qüvvəyə mindiyi zaman

Testin çətinlik dərəcəsi: orta
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. "Təhsil" NPM. Bakı, 2005, 474 səhifə

42. Anbara daxil olan mal-material, avadanlıq və ehtiyat hissələri hansı qaydalara uyğun qəbul olunurlar?

A) Müvafiq sənəd tələb olunmaqla, keyfiyyəti, miqdarı yoxlanılır və qəbul olunur

B) Mal-materialın kəmiyyətinə görə qəbul olunur

C) Müvafiq sənəd tələb olunmaqla, sınaqdan keçirildikdən sonra qəbul olunur

D) Görünüşü yoxlanıldıqdan sonra qəbul olunur

E) Akta əsasən qəbul olunur

Testin çətinlik dərəcəsi: orta
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. "Təhsil" NPM. Bakı, 2005, 474 səhifə

43. Aşağıdakılardan hansı sənəd neft çənlərinin "İstismar sənəd"lərinə aiddir?

A) Çənin istismara qəbul aktı

B) Metal konstruksiyaların zavod sertifikatı

C) Quraşdırılmış avadanlıqların qəbul aktı

D) Çənlərin torpaqlanma sxemi

E) Çənin texnoloji xəritəsi

Testin çətinlik dərəcəsi: orta
İstinad: Правила технической эксплуатации резервуаров и инструкции по их ремонту. Москва «Недра» 1988. s. 3.2 və 3.7.

44. Strateji planla bağlı müdəalar hansı cavabda düzgün göstərilmişdir?

A) 3-5 il üçün tərtib edilir, hər il baxılır, onun əsasında illik planlar hazırlanır

B) 1-1,5 il üçün tərtib edilir, hər 3 ildən bir  baxılır, onun əsasında 10 illik planlar hazırlanır

C) Hər ay üçün tərtib edilir, hər rüb  baxılır, onun əsasında 1 illik planlar hazırlanır

D) Ən azı 10  il üçün tərtib edilir, hər 1 ildən bir  baxılır, onun əsasında 5 illik planlar hazırlanır

E) Hər 3  ay üçün tərtib edilir, hər rüb  baxılır, onun əsasında 1 illik planlar hazırlanır

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.63

45. Neft məhsulunun marketinq tədqiqatı məqsədi ilə ilkin informasiyanın Sınaq (eksperiment) üsulu ilə alınmasına aid olanı tapın.

A) Açıq  müşahidə aparılması ilə nəticələrin alınması

B) Şifahi  sorğuların aparılması ilə nəticələrin alınması

C) Gizli müşahidə aparılması ilə nəticələrin alınması

D) Anket sorğuların keçirilməsi ilə nəticələrin alınması

E) Proseslərin həyata keçirilməsi ilə nəticələrin alınması

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.51

46. İstehsal olunan neft məhsulun təkmilləşdilməsi (onun keyfiyyəti, dizaynı, qablaşdırması) və reklam kampaniyasının səmərəliliyini artırmaqla bağlı istehlakçılar sırasından 6-10 nəfərin  fikirlərini, ideyalarını kollektiv şəkildə ortaya çıxarılması hansı marketinq tədqiqatı üsuluna aiddir?

A) Əhatəli müsahibə üsulu

B) Fokus-qrup üsulu

C) Protokolların təhlili üsulu

D) Proyektisiya üsulu

E) Eksperement üsulu

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.52

47. İntensiv paylama üsulu istehsalçının mümkün qədər daha çox ticarət məntəqələrində öz məhsullarını satması strategiyası hansı paylama üsulu üçün səciyyəvidir?

A) Auksion paylama üsulu

B) İntensiv paylama üsulu

C) Eksklüziv paylama üsulu

D) Selektiv paylama üsulu

E) Ekstensiv paylama üsulu

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.217

48. Satışın gələcəkdəki həcminin qiymətləndirilməsi satış (keçmişdəki satışlar) haqqında məlumatlara, satıcı və alıcıların rəylərinə əsasən aparılması satışın proqnozlaşdırılmasının hansı üsulu üçün xarakterikdir?

A) Ekspert mülahizələri üsulu

B) İntuisiya (duyğu) xarakterli üsul

C) Zaman sırasının təhlili üsulu

D) Ekstropolyasiya üsulu

E) Korelyassiya təhlili üsulu

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.129

49. Müəssisədə işçilər üçün lazım olan xüsusi geyimvə digər fərdi mühafizə vasitələrinin siyahısı kim tərəfindən hazırlanır?

A) Müəssisənin Həmkarlar İttifaqı komitəsininn işçiləri və təhlükəsizlik texnikası xidməti tərəfindən

B) Müəssisənin Həmkarlar İttifaqı komitəsinin işçiləri və əməyin mühafizəsi xidməti tərəfindən

C) Müəssisənin Həmkarlar İttifaqı komitəsininn işçiləri və texniki şöbə tərəfindən

D) Texniki şöbə və direktorun əməyin mühafizəsi üzrə müavini tərəfindən

E) Əməyin mühafizəsi və təhlükəsizlik texnikası xidməti tərəfindən

Testin çətinlik dərəcəsi: asan
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

50. Materiallara tələbatın hesablanmasında istifadə edilən determinələşdirilmiş metodun hansı halda tətbiq edilir?

A) Gözlənilən tələbatın hesablanması üçün riyazi-statistik metodların tətbiqinə ehtiyac olduqda

B) Tələbatın hesablanmasında işçi heyətinin təcrübəsinə ehtiyac olduqda

C) Ucuz və tez istehlak olunması nəzərdə tutulan məhsullara ehtiyac olduqda

D) Bazarın təhlilinə kifayət qədər vaxt olmadıqda

E) Sifarişlərin yerinə yetirilməsi dövrü və eləcə də, materiallara tələbatın həcmi və yaranma vaxtı məlum olduqda

Testin çətinlik dərəcəsi: çətin
İstinad: T.İmanov. Logistikanın əsasları. II hissə. Bakı, 2005

51. Bazar qiyməti müvazinət qiymətindən aşağı olarsa, hansı hal düzgündür?

A) Əmtəənin təklifi artır

B) Ehtiyatların qiyməti artır

C) Satıcılar bazarı formalaşır

D) Əmtəə artıqlığı yaranır

E) Əmtəə qıtlığı yaranır

Testin çətinlik dərəcəsi: asan
İstinad: F.Rəsulov, Q.İbadoğlu. İqtisadiyyatın Əsasları. “Elm”. Bakı, 2014, ISBN 9952-8051-0-1

52. Aşağıdakılardan hansı avtomobil nəqliyyatının əsas üstünlüklərindəndir?

A) Tariflər aşağı, xüsusilə tranzit göndərmələr üçün güzəştlər böyükdür

B) Məhsuldarlığı yüksəkdir

C) “Qapıdan qapıya” yükləri daşıya bilir

D) İqlim şərtlərindən asılı deyil

E) Göndərmələrin sürəti kiçikdir

Testin çətinlik dərəcəsi: asan
İstinad: А.М.Гаджинский. Практикум по логистике. Москва, 2012

53. Neft və neft məhsulları saxlanaması üçün polad çənlərin əsas metalının və qaynaq birləşmələrin mexaniki sınağını aparmaq üçün şaqüli qaynaq şovunda kəsilən metal hissənin mərkəzi, çənin üfüqi qaynaq şovlarında hansı məsafədə yerləşməlidir?

A) 1500 mm dən az olmayan məsafədə

B) 500 mm dən az məsafədə

C) 20 mm məsafədə

D) Üfüqi qaynaq şovu ilə kəsişmə nöqtəsində

E) 700 mm dən az olmayan məsafədə

Testin çətinlik dərəcəsi: çətin
İstinad: Правила технической эксплуатации резервуаров и инструкции по их ремонту. Москва «Недра» 1988. ЧАСТЬ II. m 1.3.44

54. Hansı cavabdakı mənbələr alıcıların ( İstehlakçıların) informasiya mənbələrinin fərdi mənbələr qrupuna aiddir?

A) Kütləvi informasiya vasitələri

B) Reklam, ticarət nümayəndələri

C) Dillerlər, sərgilər, qablaşdırma

D) Ailə, dostlar, qonşular, tanışlar

E) Məhsulların istehlak xüsusiyyətlərini öyrənən təşkilatlar

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.157

55. Satışın marketinq planı neçə  səviyyədə və hansı adla  hazırlanır?

A) 2 səviyyədə  - strateji və taktiki

B) 1 səviyyədə  - strateji

C) 3 səviyyədə  - meqa, makro  və mikro

D) 1 səviyyədə  -  taktiki

E) 2 səviyyədə  - makro  və mikro

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.61

56. İşçilərin şlanqlı əleyhqazla (PŞ-1) işləmə və tənəffüz vaxtı nə qədərdir?

A) Şlanqlı əleyhqazla işləmə vaxtı 1 saat və fasilə isə 15 dəq-dən çox olmamalı

B) Şlanqlı əleyhqazla işləmə vaxtı 1 saat  və fasilə isə 30 dəq-dən çox olmamalı

C) Şlanqlı əleyhqazla işləmə vaxtı 15 dəq və fasilə isə 15 dəq-dən çox olmamalı

D) Şlanqlı əleyhqazla işləmə vaxtı 15 dəq və fasilə isə 30 dəq-dən çox olmamalı

E) Şlanqlı əleyhqazla işləmə vaxtı 30 dəq və fasilə isə 45 dəq-dən çox olmamalı

Testin çətinlik dərəcəsi: orta
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

57. Satışın planlaşdırılması və ya marketinq tədqiqatı məqsədi ilə ilkin informasiyanın toplanılmasının "müşahidə" üsulu dedikdə nə nəzərdə tutulur?

A) Peşəkar mütəxəssisin hər hansı proses haqqında mülahizələri

B) Tədqiqat obyekti ilə əlaqə yaratmaqla informasiyanın toplanması

C) Proseslərin həyata keçirilməsi ilə nəticələrin alınması

D) Müzakirə aparmaqla  informasiyanın toplanması

E) İnsanların, onların davranışının və uyğun şəraitin izlənilməsi

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.50

58. Qoruyucu kəmərdən istifadə edən işçi kəmərin istismar yararlılığını neçə vaxtdan bir yoxlamalıdır?

A) Hər gün işə başlamazdan əvvəl

B) Həftədə bir dəfə

C) Hər gün iş qurtardıqdan sonra

D) Ayda iki dəfə

E) Gündə iki dəfə

Testin çətinlik dərəcəsi: orta
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

59. Müqavilənin hansı növləri vardır?

A) Birdəfəlik, dövrü, qarışıq

B) Qısa və orta müddətli

C) Müvəqqəti və daimi

D) Variantlılıq, çeviklik

E) Ardıcıl, paralel

Testin çətinlik dərəcəsi: çətin
İstinad: T.İ.İmanov. Logistikanın Əsasları, I hissə. Dərslik. "Təhsil" NPM. Bakı, 2005, 474 səhifə

60. Neft məhsullarının çatdırılması (tədarükü) üçün sutkalıq Əmrin nüsxələri kimlərə təqdim edilir?

A) Bir nüsxə mühafizə xidmətinə və ikinci nüsxə istehlakçıya verilır

B) Vahid nüsxədə olmaqla mühafizə xidmətinə verilir

C) Bir nüsxə çənlər parkının rəisinə və ikinci nüsxə istehlakçıya göndərilir

D) Bir nüsxə əmtəə - nəqliyyat qaiməsi yazılması üçün verilir və ikinci nüsxə fond qrupunda qalır

E) Bir nüsxə baş mühəndisə  və ikinci nüsxə mühasibatlıqa verilir

Testin çətinlik dərəcəsi: orta
İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.5.22.

61. Neftbaza neft boru kəmərləri ilə neftməhsulları alarkən borudakı hansı yerədək neftməhsulu magistral boru kəmərinə məxsus sayılır?

A) Borukəmərinin  neftbazanın ərazisində olan cıxış siyirtməsinə (zadvişka) qədər daxilində olan məhsulu

B) Boru kəmərinin neftbazanın ərazisinə keçdiyi  nöqtəyədək daxilində olan neft məhsulu

C) Neftebazanın neftməhsuları saxlanan çənlərin bilavasitə giriş siyirtməsinə qədər boru daxilində olan məhsul

D) Boru kəmərin neftebazanın çənlər parkının ərazisinə giriş nöqtəsinə qədər boru daxilində olan məhsul

E) Maqistral boru kəmərindən, neftbazaya  ayrılan boru kəmərinin başlanğıc nöqtəsinə qədər hisəsində olan məhsul

Testin çətinlik dərəcəsi: orta
İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.3.45

62. Neft məhsullarının çatdırılması (tədarükü) üçün  sutkalıq Əmrin  bir nüsxəsinin fond qrupunda hansı məqsədlə saxlanılır?

A) Çənlərdəki təmir qrafikinin tərtibi üçün

B) Nəqliyyat qaiməsinin tərtibi üçün

C) Neft məhsullarının keyfiyyətinə nəzarət üçün

D) Daxil olan neft məhsulunun miqdarının müəyyən edilməsi üçün

E) Fonda nəzarət üçün

Testin çətinlik dərəcəsi: orta

İstinad: Инструкция о порядке поступления, хранения, отпуска и учета нефти и нефтепродуктов на нефтебазах, наливных пунктах и автозаправочных станциях системы Госкомнефтепродукта СССР (с изменениями на 30 ноября 1987 года) m.5.22

63. Sənaye məhsullarının birsəviyyəli bölüşdürmə ( marketinq) kanalının neçə iştirakçısı olur?

A) 3

B) 2

C) 1

D) 0

E) 4

Testin çətinlik dərəcəsi: orta
İstinad: Kotler F.Marketinq menecmenti. 2 ci nəşr /Rus dilindən tərcümə Bakı. 2008.s.350

64. 1 barel neftin daşınması , sığortası çatdırılması keyfiyyətinin dəyişməsi zamanı ortaya çıxan xərclərin ümumi dəyəri necə adlanır?

A) Differensial

B) Marker qiyməti

C) Sabit qiymət

D) Əlavə xərc

E) Funskional qiymət

Testin çətinlik dərəcəsi: asan
İstinad: Катюха П.Б. Торговля Углеводородами на мировых энергетических рынках. 2015. səh 127.

65. Elektrik cərəyanının təsirindən qoruyan mühafizə vasitəsini göstərin?

A) Dezaktivasiya vasitələri

B) Səsboğan

C) İzoləedici örtüklər və qurğular

D) Hermetikləşdirici qurğu

E) İşıq filtrləri

Testin çətinlik dərəcəsi: asan
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

66. Neft məhsulunun satışının planlaşdırılması və ya marketinq tədqiqatı məqsədi ilə ilkin informasiyanın toplanılmasında istifadə edilən “panel sorğusu” nun mahiyyəti nədən ibarətdir?

A) İnsanların onların davranışının izlənildiyini bilmədən yalnız bir dəfə sorğulunması

B) İnsanların onların davranışının izlənildiyini bilərək bir dəfə sorğulanması

C) Eyni insanlarla dəfələrlə (təkrar) sorğuların aparılması

D) Müxtəlif insanların onların davranışının izlənildiyini bilərək eyni sorğuya cavab verməsi

E) Hər bir insana yalnız bir dəfə olmaqla müxtəlif sorğuların verilməsi

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.51

67. Alıcıların lamisə (toxunma hissi), baxış, məhsuldan istifadə etməklə əldə etdiyi məlumat, hansı qrup informasiya mənbələrinə aiddir?

A) Fərdi mənbələr

B) Fərdi təcrübə mənbəsi

C) Kommersiya mənbələri

D) İctimai mənbələr

E) Texnoloji mənbələr

Testin çətinlik dərəcəsi: orta
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.157

68. Marketinq tədqiqatlarının «İnformasiyanın toplanması» mərhələsində aşağıda göstərilənlənlərdən hansı nəzərdə tutulur?

A) İnformasiyanın istehlakçılardan birbaşa mənzillərində toplanması

B) İnformasiyanın statistik məlumatlar əsasında toplanması

C) İnformasiyanın istehlakçılardan birbaşa alqı- satqı məntəqələrində toplanması

D) İnformasiyanın analoji məlumatlar əsasında toplanması

E) İnformasiyanın Rəsmi orqanlardan sorğu əsasında toplanması

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.56

69. Neftin satış qiyməti kim tərəfindən təyin edilir?

A) OPEK

B) Beynəlxalq Neft Karteri

C) Ərəb Dölətləri Liqası

D) Asiya İnkişaf Bankı

E) Birja

Testin çətinlik dərəcəsi: çətin
İstinad: Катюха П.Б. Торговля Углеводородами на мировых энергетических рынках. 2015. səh 162.

70. Ətraf mühitin qeyri-müəyyənliyi şəraitində firma hansı satış proqnozlaşdırma üsuluna üstünlük verməlidir?

A) Evristik planlaşdırma

B) Sürüşkən planlaşdırma

C) Ekstropolyasiya üsullu palnlaşdırma

D) Reqressiya təhlili planlaşdırma

E) Statistik məlumat üzrə planlaşdırma

Testin çətinlik dərəcəsi: çətin
İstinad: N.D.Verdiyev. Marketinqin idarə edilməsi, dərs vəsaiti, Gəncə .2012.s.133

71. Bölmələrin funksiyalarının yenidən təşkili və hər biri multitənzimləyici əmrlər vaistəsilə idarə olunun əsaslı biznes-proseslərin yaradılması hansı anlayışla ifadə edilir?

A) Autsorsinq

B) Reinjinirinq

C) Bençmarkinq

D) Kaskadlama

E) Demarketinq

Testin çətinlik dərəcəsi: çətin
İstinad: Kotler F.Marketinq menecmenti. 2 ci nəşr /Rus dilindən tərcümə Bakı. 2008.s.38

72. İş zamanı işçilərin istifadə etdikləri fərdi mühafizə vasitələrinə qoyulan tələblərdən biri doğrudur.

A) Fərdi mühafizə vasitələri onları istifadə edən işçiləri zərərli istehsalat amillərinin təsirindən 20 % qorumalıdır

B) Fərdi mühafizə vasitələri onları istifadə edən işçiləri zərərli istehsalat amillərinin təsirindən 50 % azaltmalıdır

C) Fərdi mühafizə vasitələri onları istifadə edən işçiləri zərərli istehsalat amillərinin təsirindən tam olaraq qorumalıdır

D) Fərdi mühafizə vasitələrindən istifadədən sonra atılmalı və yerinə yeniləri gətirilməlidir

E) Fərdi mühafizə vasitələri yuyulma, kimyəvi təmizləmə və zərərsizləşdirmə zamanı öz xassələrini dəyişməməlidir

Testin çətinlik dərəcəsi: orta
İstinad: Y.Əhmədov, T.Rəhimov. İşçilərin sağlamlığı və əməyin təhlükəsizliyi. II cild. Bakı, 2011. Səh. 500

73. Tədarükün planlaşdırılması hansı proseslə başlayır?

A) Maliyyə resurslarına tələbatın müəyyənləşdirilməsi ilə

B) Material resurslarına tələbatın müəyyənləşdirilməsi ilə

C) Məsrəflərin minimumlaşdırılması ilə

D) Bazarın araşdırılması ilə

E) İstehlakçıların müəyyənləşdirilməsi ilə

Testin çətinlik dərəcəsi: asan
İstinad: T.İmanov. Logistikanın əsasları. II hissə. Bakı, 2005

74. Neft çənlərinin texniki sənədlər dəstinə aid olan sənədləri tapın. 1.Çənin hazırlanması və montajı sənədi; 2.İstismar sənədi; 3.Təmir sənədi; 4.Çənin utlilzasiya sınədi; 5.Təhlükə barədə xəbərdarlıq sənədi

A) 3.5

B) 2,3,4,5

C) 2,3,5

D) 1.5

E) 1,2,3

Testin çətinlik dərəcəsi: orta
İstinad: Правила технической эксплуатации резервуаров и инструкции по их ремонту. Москва «Недра» 1988. s. 3.1.

75. Neft bazalarda neft məhsullarının göndərilməsi yalnız hansı halda mümkündür?

A) Yanğin mühafizəsi üzrə müfətişinin nəzarət - buraxılış vərəqəsi ilə

B) Fövqəladə Hallar Nazirliyinin müfətişinin baxış - buraxılış vərəqəsi ilə

C) Baş mühəndisin verdiyi icazə buraxılış vərəqəsi olduqda

D) Əmtəə - nəqliyyat əməliyyatlarına məsul şəxsin göstərişi ilə

E) Baza müdürinin göstərişi ilə

Testin çətinlik dərəcəsi: asan
İstinad: "Правил технической эксплуатации нефтебаз" Москва. 28 декабря 1984 года.m.5.1.13.

76. Aşağıdaki faktorlardan hansı neftin satış qiymətinin azalmasına səbəb ola bilər?

A) İqtisadi infkişaf

B) Ucuz alternativ enerji mənbəylərinin geniş istifadə edilməsi

C) Böyük neft hasilatçılarına qarşı embarqo elan edilməsi

D) İki neft hasilatçısı arasında silahli münaqişə

E) Siyasi destabilizasiya

Testin çətinlik dərəcəsi: asan
İstinad: Катюха П.Б. Торговля Углеводородами на мировых энергетических рынках. 2015. səh 172.

77. Neft və neft məhsulları saxlanaması üçün polad çənlərin əsas metalının və qaynaq birləşmələrin mexaniki sınağını aparmaq üçün ilk növbədə nə edilməlidir?

A) Aşağı iki quruşaqlardan birindən qaynaq şovu olan hissədən 400 mm diametrli hissə kəsilməldir

